# Azərbaycan və Türkiyə birlikdə tarix yazırlar

*Adətən, rəsmi mərasimlər paytaxtlarda keçirilir. Ancaq biz rəsmi mərasimləri bütün görüşlər zamanı keçiririk. Həm Şuşada, həm də bu gün Zəngilanda rəsmi mərasimlərin keçirilməsi, Türkiyə və Azərbaycanın Dövlət himnlərinin səslənməsi, bizim birgə addımlarımız tarixdə əbədi qalacaq. Bu tarixi biz birlikdə yazırıq. Necə ki, bütün müharibə dövrü ərzində birlikdə idik, bu gün də bir yerdəyik.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Buraya gəlməzdən əvvəl Füzulini bir tərəfdən Şuşa, digər tərəfdən də cənub sərhədi boyunca Ağbənd, gələcəkdə isə inşallah, Naxçıvan ilə birləşdirəcək yolların inşa edildiyini gördük, işçi qardaşlarımızla görüşdük. Bu yollar bölgədə çoxtərəfli daşımaların əsasını təşkil edəcək ... Bu qədər qısa müddətdə bölgənin bərpası istiqamətində görülən işlər həm Azərbaycan, həm də regionumuz üçün qürurverici və ümidvericidir.*

**Rəcəb Tayyib ƏRDOĞAN**
**Türkiyə Cümhuriyyətinin Prezidenti**

**Zaman bizə çox dərs verdi. Biz də ondan çox şey öyrəndik. Öyrəndik ki, hər dost deyəndən dost, hər üzəgüləndən müttəfiq olmur. Onu da öyrəndik ki, soyuğa, sazağa düşmüş insan üçün ən isti əl məhz qardaş əlidir. Biz otuz il tablamağa məcbur olduğumuz soyuğa, sazağa bilavasitə qardaşlarımızın mənəvi dəstəyi ilə qalib gəldik. Bu gün artıq dünyanın hər yerində bilirlər ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmək üçün dünya güclərindən ən mötəbər beynəlxalq təşkilatlardan yardım gözləsə də, həqiqi kömək qardaş Türkiyədən gəldi.**




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın oktyabrın 26-da Zəngilanın Ağalı kəndində birgə mətbuat konfransında bəyanatları faktlarla nə qədər zəngin və əhatəli idisə, həmin bəyanatların səsləndirilməsi üçün seçilən məkan da bir o qədər möhtəşəm idi. Ona görə də bu məqamda qardaş ölkə telekanalında –bir türk müdrikindən eşitdiyim hikmətlərlə dolu əhvalatı xatırladım.

"Hökmdar oğluna vəsiyyətində deyir: – Hansısa hökmdarı qəbul edərkən, dörd məsələni yadda saxla. Birinci, nə üçün görüşürsünüz? İkinci, təkliflərin nə olacaq? Üçüncü, gözlənilməz təklif eşitsən vəziyyətdən necə çıxacaqsan? Dördüncü, ən mühüm məsələ isə görüş məkanının seçilməsidir. Danışıqlar üçün məkan seçimi dostlarını incitməmək, düşmənlərinə isə təsir etmək baxımından çox əhəmiyyətlidir".

Eşq olsun Azərbaycan Prezidentinə ki, qardaş ölkənin dövlət başçısı ilə mətbuata bəyanat vermək üçün məhz Zəngilanın külü, xarabalıqları arasından ucaltdığı "Ağıllı kənd"i seçdi. İnanırıq ki, 2016-cı ildəki Aprel döyüşlərindən və 2020-ci ildəki "dəmir yumruq"dan dərs ala bilməyən ermənilər bu faktdan dərs alacaqlar. Əminik ki, öz himayədarlarına arxalanaraq ərazilərimizi təkcə işğal etməyən, həm də yerlə-yeksan edib viranəyə çevirən Ermənistan rəhbərliyi bu gün Şuşanın, Füzulinin, Zəngilanın və digər rayonlarımızın son görüntülərini görəndə ... sarsılacaqlar, ayılacaqlar. Anlayacaqlar ki, dünya ictimaiyyəti onların törətdiyi vandallıqları da gördü, Azərbaycanın qüdrətli bərpa-quruculuq, tərəqqi, inkişaf strategiyasının nəticələrini də.

O ki qaldı, mətbuat üçün verilən bəyanatlara, doğrusu, həmin bəyanatlar mətbuatdan daha çox Türk dünyasının dostlarına və bədxahlarına ünvanlanmış ismarıclardan ibarət idi. Təbii ki, həmin ismarıclar lazımi ünvanlara bilavasitə mətbuat vasitəsilə çatdırılır.

Məsələn, Azərbaycan Prezidenti qardaş ölkənin dövlət başçısının son günlərdəki diplomatik uğurları ilə fəxr etdiyimizi bütün dünyaya car çəkərək dedi ki, Türkiyə cənab Ərdoğanın liderliyi ilə artıq dünya çapında böyük gücə çevrilib. Heç kim Türkiyəyə öz iradəsini diktə edə bilməz: "Bu yaxınlarda əziz qardaşım Türkiyənin daxili məsələlərinə müdaxilə etmək istəyənlərə elə cavab verməşdi ki, hesab edirəm bu, bütün siyasətçilər üçün örnəkdir. Öz milli ləyaqətini qoruyan, öz xalqının, dövlətinin maraqlarını, qürurunu qoruyan və müdafiə edən Lider bu gün buradadır, Azərbaycandadır, Zəngilandadır, Ağalıdadır. Biz bunu qiymətləndirməliyik. Bütün türk dünyası üçün Rəcəb Tayyib Ərdoğan amili ən önəmli amillərdən biridir".

Xatırladaq ki, biz təkcə İkinci Qarabağ müharibəsindəki Qələbəmizə yox, həm də postmüharibə dövründəki uğurlarımızın hamısına Türkiyə ilə birlikdə nail olmuşuq. Dövlət başçımız xatırlatdı ki, Füzuli Beynəlxalq Hava Limanının açılışında birlikdə iştirakımız bir daha bizim birliyimizi göstərir, gücümüzü göstərir: "Onu göstərir ki, Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır. Füzuli Beynəlxalq Hava Limanının inşası cəmi səkkiz ay davam etdi. Səkkiz ay ərzində beynəlxalq hava limanı inşa edildi. Bu hava limanının inşasında Azərbaycan və Türkiyə şirkətləri iştirak etmişlər. Yəni, bu, bizim birgə uğurumuzdur".

Bu uğurları təkcə sadə fakt, adi hadisə kimi qiymətləndirmək tamamilə səhv olardı. Çünki bu gün Azərbaycanla Türkiyə birlikdə tarix yazırlar. Necə ki, bütün müharibə dövrü ərzində birlikdə idik, bu gün də bir yerdəyik. Dövlət başçımızın dönə-dönə xatırlatdığı kimi, İkinci Qarabağ savaşının ilk saatlarından son dəqiqələrinə qədər Türkiyə Azərbaycanın yanında olmuşdur. Rəcəb Tayyib Ərdoğan həmin günlərdə bütün dünyaya bəyan etmişdi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır.

**(ardı 2-ci səhifədə)**



# Azərbaycan və Türkiyə birlikdə tarix yazırlar

*(əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyev Zəngilandakı bəyanatında yenə də həmin məsələni qabartdı: "Bu, bizə çox böyük siyasi və mənəvi dəstək, əlavə güc verdi. Əziz qardaşım, bu gün Azərbaycan xalqı haqlı olaraq Sizə öz təşəkkürünü bildirir. Bilirsiniz ki, Azərbaycanda hər kəs Sizi sevir, Sizə böyük hörmətlə yanaşır. Siz bizim Zəfərimiz üçün çox böyük işlər görmüsünüz və bu gün artıq quruculuq dövründə, bərpa dövründə yenə də bizimlə bərabərsiniz".

Siyasi fəaliyyətində və dövlət idarəçiliyində daim qətiyyətli olan, qarşıya qoyduğu məqsədlərə doğru inamla gedən və daim uğurlara imza atan Rəcəb Tayyib Ərdoğandan Azərbaycanın nailiyyətləri barədə eşitmək hər bir soydaşımız üçün maraqlıdır. Xüsusən, onun otuz il bölgənin inkişafına əngəl olan erməni işğalı barədə danışdıqları Cənubi Qafqazın hər iki ölkəsində – Azərbaycanda və Ermənistanda maraqla gözlənilirdi. Bütün bunları nəzərə alan Türkiyə Prezidenti dedi ki, Ankara və Bakının planlaşdırdığı layihələr kənarlaşdırıcı deyil, əhatəedicidir. Yəni biz heç kəsi özümüzdən kənarlaşdırmaq istəmirik, əksinə, regionun bütün ölkələri ilə səmimi, mehriban qonşuluq münasibətləri yaratmaq istəyirik ki, gələcək nəsillərimizə problem qalmasın.

Qardaş ölkənin dövlət başçısının fikrincə, davamlı sülhün təmin olunması və arzu edilən normallaşma istiqamətində irəliləyişin yaranması üçün şərait bu gün əvvəllər olmadığı qədər əlverişlidir: "Bunun üçün bölgədəki yeni duruma uyğun hərəkət edilməlidir. Biz bölgədə davamlı sülhün və əhatəli normallaşmanın tərəfdarıyıq. Bu coğrafiyadan keçəcək torpaq yollar və dəmir yolu xətləri təkcə Azərbaycan və Türkiyə üçün deyil, bütün bölgə ölkələri üçün iqtisadi və ticari fürsətlər yaradacaq. Gün gələcək Zəngəzurdan çıxıb İstanbula qədər gedə biləcəyik, İğdıra, Qarsa gedə biləcəyik və bölgənin tranzit, logistika mərkəzinə çevrilmə imkanı möhkəmlənəcək. Bu inkişafdan İran, Gürcüstan, Ermənistan da daxil olmaqla Azərbaycanın bütün qonşuları istifadə edəcəklər. Bir sözlə, bu layihələr kənarlaşdırıcı deyil, əhatəedicidir. Bu prosesdə sərhədlərin müəyyənləşdirilməsi və qarşılıqlı olaraq tanınması zəruridir. Mehriban qonşuluq münasibətlərinin əsasını da bu anlayış təşkil etməkdədir".

Bu qeydlərimi dövlət başçımızın öz bəyanatında regionun gələcəyi barədə söylədiyi əminliklə dolu nikbin proqnozla tamamlayırıq: "Bu gün burada, Zəngilanda olarkən, təbii ki, biz Zəngəzur dəhlizi haqqında danışmasaq düzgün olmaz. Zəngilan Şərqi Zəngəzur bölgəsində yerləşir və buradan keçən Zəngəzur dəhlizi bütün Türk dünyasını birləşdirəcək. Həm Azərbaycan, həm Türkiyə Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli addımlar atır. Əminəm ki, bu addımlar yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 28 oktyabr.- S.1-2.